# Dəyişməyən tarix

O, adı kimi özü də polad iradəli, polad dözümlü, polad əqidəli, halal çörəkli bir ailədə doğulmuş, böyümüş, ətrafında olan insanlardan yalnız əsil insanlığa xas olanları öz xarakterində formalaşdırmışdır. Peşə, sənət seçimində də əsil kişi sənəti sandığı hərbiçi peşəsini seçmişdir. Mənfur ermənilərin və onların havadarlarının Azərbaycan ərazisində törətdikləri faciələr, torpaqlarımızın 20 faizinin işğalı, zəngin sərvətimizin yağmalanması, kənd, qəsəbə və şəhərlərimizin xarabalığa çevrilməsi, dinc əhalinin vəhşicəsinə öldürülməsi, öz yurdundan, obasından məcburən əhalinin qovulması onu daima narahat edirdi. Vətənpərvər, mənəviyyatca zəngin olan, xalqına dərin məhəbbət bəsləyən Polad hərbiçi sənətini seçməklə Vətən torpaqlarının azadlığı və bütövlüyü uğrunda mübarizə apararaq Zəfər qazanmaq və buna görə də ilk növbədə güclü ordu yaradılmasına nail olmaq istəyirdi. Hər an döyüşə hazır bir əsgər kimi vətəninə xidmət edirdi. Bacarıqlı hərbiçi rütbələri artsa da, yüksək titullar qazansa da, müəyyən vəzifələrdə hərbi fəaliyyətini davam etdirsə də daima səngərlərdə, əsgərlərinin yanında olar, onlara böyük qardaş kimi qayğı göstərərdi. Məhz buna görə də ona səngər generalı adı verilmişdi

Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovun anadan olmasından 50 il ötür

General-mayor Polad Həşimov 1975-ci il yanvarın 2-də Qəbələ rayonunun Vəndam kəndində anadan olub. Ailəsi ilə birgə Sumqayıt şəhərinə köçdüyündən buradakı 28 və 34 nömrəli məktəblərdə orta təhsil alıb. Sonra o, taleyini hərbçi peşəsinə bağlamaq üçün indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub və bu xüsusi təyinatlı təhsil ocağını müvəffəqiyyətlə bitirib.



Taqım komandirliyindən general-mayor ali hərbi rütbəsinədək yüksələn Polad Həşimov cəbhə bölgələrində xidmət edərək qarşıya qoyulmuş əmr və tapşırıqların layiqincə yerinə yetirilməsi üçün səy göstərib.

2016-cı ilin Aprel döyüşləri zamanı ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və Azərbaycan Ordusu qarşısında qoyulmuş tapşırıqları yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 2016-cı il 20 aprel tarixli Sərəncamına əsasən, Polad Həşimov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

2019-cu il iyunun 24-də Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən Polad Həşimova general-mayor ali hərbi rütbəsi verilib.

Polad Həşimov 2020-ci il iyulun 14-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmən təxribatlarının qarşısını alarkən qəhrəmancasına şəhid olub. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 9 dekabr tarixli Sərəncamı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.

Polad kimi qəhrəmanlar tarixdə az-az yetişər. Bütün varlığı ilə Vətən olan bir igiddir Polad! Bu ilin yanvar ayının əvvəlində onun həyatının ən gözəl yaşı - 50 ili tamam oldu. Ancaq o, 45 yaşını əbədi olaraq seçərək şəhadətə qovuşdu. İllər keçsə, qərinələr ötsə də səngər generalı - təkcə Səmayə ananın deyil, bütün xalqın, Vətənin oğul balası olan general-mayor, Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovun doğum günü, yaşı elə 45 də də qalacaq: əbədiyaşar ömürlü! Ancaq cənnət məkandakı 5-ci doğum günüdür Poladımızın!

Polad Həşimovun doğum günü Bakıdakı ikinci Fəxri xiyabanda və doğulduğu Qəbələ rayonunun Vəndam qəsəbəsində, eləcə də, respublikamızın bütün bölgələrində qeyd olunmuşdur.

Məkanın cənnət olsun, Polad general!

**BIBIXANIM.**

# Çiliklənən arzular

**Vətənpərvərlik ailədən başlanır**

Ailədə oğlan övladı doğulanda hər kəs bir əsgər balamız doğulub, dünyaya bir əsgər gəlib deyər. Üzlərdə bir sevinc, sevinc dolu bir qürur hiss olunar. Ancaq hər doğulan "əsgər"dən əsgər yetişmir. Əsgər vətənpərvər ailədə, nizam-intizamlı ailələrdə yetişər. O ailədə ki, mənəviyyata üstünlük verilir, orada böyüyən övladlar da vətənpərvər ruhda olarlar. Vətənpərvər olan gənclər isə ağıllı, düşüncəli, ailəsinə, xalqına hörmət və ehtiramla yanaşar, ən ümdəsi dəyər verməyi bacararlar. Vətənpərlik kitablar oxumaqla yaranmaz, ilk növbədə ailədə, körpəliyindən yaşadığı mühitdə formalaşar. Onu da qeyd edək ki, həm də ot kökü üstə bitər.

Vətənə sədaqət valideynlərin ailədəki rolundan başlar. Anaya qayğı, sevgi, ataya hörmət vətənə sədaqətin özülüdür. Qəzənfər Nəsrullayevin ailəsində bu hisslər dərin kök salmışdır. Elə buna görə də övladları öz xarakteri ilə ətrafdakıların rəğbətini qazanmışdır.

Qəzənfər və Təranə xanım Nəsrullayevlərin ailəsində 3 övlad böyüyürdü. 2 oğul və 1 qız övladı. Rəşid öz həyata baxışı ilə fərqlənər həmişə yaşca özündən böyük uşaqlarla dost olardı.

**Tanışlıq**

Rəşid Nəsrullayev 11 iyul 1993-cü ildə Qəbələ rayonunun Nic qəsəbəsində doğulmuşdur. 1999 - 2010-cu illərdə Nic qəsəbəsində 4 saylı məktəbdə orta təhsil almışdır. 2011-ci İldə həqiqi hərbi xidmətə çağırılmışdır. Əsgəri xidmət illərində öz nizam-intizamı ilə nümunəvi əsgər kimi hörmət qazanmış, verilən tapşırıqları bacarıqla yerinə yetirmişdir. O, 2013-cü ildə hərbi xidmətdən tərxis olunmuşdur.

2020-ci ilin 14 iyul tarixində Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid olmasından sonra gənclər arasında erməni mənfurlarına qarşı nifrət hissi daha da gücləndi və onlar hərbi komissarlığa gedib könüllü olaraq yenidən orduda xidmətə getmək üçün ərizə ilə müraciət etdilər. Rəşid Nəsrullayev də həmin gənclərdən biri idi. O da səfərbər



olunmuş, hərbi təlim toplantılarına çağırılmışdı.

Azərbaycan ordusunun əsgəri olan Rəşid 2020-ci il sentyabrın 27-də Azərbaycan silahlı qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan vətən müharibəsində könüllü atıcı olaraq iştirak etmişdir.

Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. O, noyabrın 3-də Tərtər rayonunun Suqovuşan qəsəbəsi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhadətə qovuşmuşdur. Rəşid Nəsrullayev doğulub boya-başa çatdığı Nic qəsəbəsində dəfn olunmuşdur.

**Vətən üçün böyüdülən oğul**

Rəşid də öz həmyaşıdları kimi qəlbi arzularla dolu bir gənc idi. Əsgərlik xidmətini başa vurduqdan sonra satıcı işləyirdi. Ürəyində sevdiyi qız var idi... Gələcək həyatı üçün o qədər şirin xəyallar qurmuşdu ki... Lakin 2020-ci ilin iyul hadisələri, Polad kimi bir generalın ermənilər tərəfindən öldürülməsi onu sarsıtdı. O, düşüncələrində yalnız vətənin azadlığını və şəhidlərimizin qisasını almağı önə çəkdi. Elə bu arzu və istəklə də Vətənin "çağırışına" getdi. Valideynləri vətən üçün böyütmüşdü Rəşidi. Vətən də dar günündə ona "oğul" dedi. Şuşanın azad olunmasına bir neçə gün qalmış zəfər arzusunda olsa da qələbə sevincini yaşamadan o, şəhadətə qovuşdu, həm də çox sevdiyi müqəddəs Azərbaycan Bayrağını özünə libas seçərək obasına "döndü".

Ata-ana qəlbi nə qədər qürur hissi keçirsə də övlad itkisinə dözmürdü. Ata övladının acılarını yaşaya-yaşaya dünyadan köçdü, ana yaralarına onun igidliyini, zirvələrdə ruhən yaşamasını sipər etsə də, həyatının "nisgil buzunu" heç əridə bilmədi. Qardaş-bacı isə qürur hissləri acıların ürəklərinə çökdüyü bir ağrı ilə keçirirlər. Ancaq Nəsrullayevlərin övladı vətən üçün böyümüş, vətənə xidmət və vətən yolunda da şəhadət yolçusu olmuşdur. Arzuları çiliklənən Rəşidin ruhu narahat deyildi. Arzu arzudan doğular deyilibdir ta qədimdən. Gənclik arzularının hamısını vətənini azad görmək arzusu gerçəkləşdirdi, axı qalib bir ölkə adı titulunun qazanılmasında onun da əməyi oldu. Tarix yazan igidlərin biri kimi Rəşid əbədiyaşarlıq qazandı.

Ölümündən sonra o, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medallar ilə təltif olunmuşdur. Rəşid bu gün təkcə Qəzənfər və Təranə Nəsrullayevlərin deyil, xalqın övladı, qəhrəmanıdır; yalnız Tərgül və Sərxanın qardaşı deyil, bütün gənclərin igid, qorxmaz, cəngavər qardaşıdır.

Məkanın cənnət olsun qəhrəman oğul, müsəlləh əsgər!

**BİBİXANIM.**

*Heç kəs unudulmur*

# Müsəlləh əsgər

Azərbaycanın qəhrəman döyüşçüləri tariximizin ən şanlı səhifələrini yazmış igidlərdir. Onlar torpaqlarımızın azadlığı və suverenliyi uğrunda canlarını fəda edərək əbədi hörmət və ehtiram qazanıblar.

Birinci Qarabağ Müharibəsi zamanı Azərbaycanın igid oğulları öz qanları bahasına vətən torpaqlarını müdafiə etmişlər. O dövrdə şəhid olan və qazilik zirvəsinə ucalan minlərlə döyüşçü xalqımızın yaddaşında əbədi yaşayır. Mübariz İbrahimov və Fərid Əhmədov kimi qəhrəmanlar, onların göstərdikləri şücaətlər tariximizin qızıl səhifələrinə yazılıb.

Zöhrabov Şəfahət Niyazi oğlu.

28.01.1973. Qəbələ rayonun Xırxatala kəndində ziyalı ailəsində anadan olub.

1991-ci ilin may ayında Belarusiya respublikasına, Sovet ordusu sıralarına hərbi xidmətə göndərilib.



1992-ilin aprel ayında müharibəyə getmək istəyilə xidmət etdiyi hərbi hissəni tərk edərək, Azərbaycana qayıdıb və bir başa hərbi komissarlığa gedərək, yaradılmaqda olan milli ordu sıralarına qoşularaq, könüllü şəkildə torpaqlarımızın müdafiəsi üçün cəbhə bölgəsinə göndərilməsini xahiş edir.

Beləliklə, Şəmkirdəki hərbi poliqonda qısa müddətli hazırlıq keçdikdən sonra, döyüş bölgəsinə göndərilir.

1992 - 94-cü illər ərzində Ağdam, Ağdərə və Füzuli istiqamətində gedən ağır döyüşlərdə iştirak edir.

Ən ağır döyüşləri, Fərrux dağı, Ağdamın Əlağallılar, Cavahirli, Güllücə, Orta Qərvənd, Baş Qərvənd kəndləri, eləcə də Ağdərənin Mehmanə kəndi uğrunda olur.

Ən yaddaqalan və uğurlu döyüşü Ağdamda, 19-cu post deyilən ərazidə olur, həmin döyüşdə tanka qarşı idarə olunan raketlə düşmən tankını məhv edir.

Mehmanə kəndi uğrunda gedən döyüşlərdə isə təkbaşına 4-5 ermənini məhv edir.

Sonuncu döyüşü Ağdamın Baş Qərvənd kəndində olur.

Həmin döyüşdə də Qranat atanla, (qranatamyot) düşmən tankını vurmaq istərkən, düşmənin snayperinin hədəfi olur, döş qəfəsindən ağır yaralanır (güllə hələ də bədənində qalmaqdadır).

Hazırda 3-cü qrup Qarabağ əlilidir, 2 övladı var.

**Natəvan YUSİFOVA,**
**Xırxatala kəndi.**

# 16 yanvar - Şəhid Xəyyam Səmədovun mövlud günüdür



Səmədov Xəyyam Mirazim oğlu 16 yanvar 1986-cı ildə Qəbələ rayonunun Mirzəbəyli kəndində anadan olub. Qəbələ rayonunun Mirzəbəyli kənd orta məktəbində təhsil alıb. Daha sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb.

Təhsilini tamamladıqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında leytenant hərbi rütbəsi ilə xidmətə başlayıb.

Azərbaycan Silahlı Qüvvələrinin mayoru olan Səmədov Xəyyam Mirazim oğlu Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən 20 sentyabr 2023-cü il tarixində həyata keçirilmiş uğurlu lokal antiterror tədbirləri zamanı şəhid olub.

Qəbələ rayonu Mirzəbəyli kənd qəbiristanlığında dəfn edilib.

Şəhid Xəyyam Səmədov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur.

İgid şəhidimiz bütün vətənpərvər insanların qəlbində əbədi yaşayır. Məkanın cənnət olsun, şəhidim!

**Şəhla XƏLİLQIZI,**
**Qəbələ şəhəri.**